# Tarix, yoxsa keçmiş



**Fəxrəddin Salim**

**Hər keçmiş tarixdirmi? Ümumiyyətlə, ərəb dilindən gələn "tarix" sözünün türkcədəki qarşılığı "keçmiş"dirmi? Bəlkə də... Ancaq nədənsə, bizim leksikonumuzda "tarix" kəlməsi daha önəmli, daha yaddaqalan hadisə və şəxsiyyətlər barəsində işlənilir. Tarixə çevrilmək sanki hər keçmişə nəsib olmayan bir şeymiş kimi anlaşılır.**

Bəlkə bu da doğrudur. Lakin nəyin, hansı şəkildə və harda doğru, yaxud yanlış olması artıq əhəmiyyətli bir şey deyil. Obyektiv baxıldığında, cəmiyyət elə bir şeydir ki, içində əritdiyi, özünəməxsus etdiyi, özünə mal etdiyi hər şey doğrudur. Bu tip şeylərin kökünə getmək, əslini araşdırmaq, üstəlik oradan bir həqiqət çıxarmaq və daha da irəliyə gedərək, bu "həqiqət"i cəmiyyətə tətbiq etmək istəkləri heç bir zaman müsbət nəticə verməmiş və heç bir hərəkətə səbəb olmamışdır.

Ancaq indi bizi düşündürən kəlmələr deyil, keçmişin tarixə çevrilməsi prosesidir. Bu anda bizim işlətdiyimiz "tarixə çevrilmə" anlayışı keçmişdə qalmaq, arxivə getmək mənasında deyil, tam tərsinə gələcəyə daşınmaq və hər zaman işlək qalmaqdır. Bəli, bu məqamda şərti olaraq razılaşmaq olar ki, hər keçmiş tarix deyil. Tarixə dönən şey həm də tarixdə qalan şeydir. Tarixdə qalmaq isə, sadəcə xatirə deyil, həm də həyatdır. Xatirənin ömrü uzun olmur. Elə buna görə də xatirəni zorla tutmaq olar, ancaq zorla tarixdə qalmaq olmaz. Tarixdə qalmaq həm də və daha çox faydalılıq əmsalı ilə ölçülür. Məsələn, hər yaradıcı şəxsiyyət tarixdə qala bilmir. Xüsusilə də öz yaşadığı dövrün dahiləri çox zaman tarix yox, keçmiş olurlar. Bəyəm, tarixdə qalan dahilərlə çiyin-çiyinə eyni cəbhədə savaşan yaradıcı şəxsiyyətlər az olub? Tam tərsinə, tarixdə qalan şəxsiyyətlərin əksəriyyəti öz dövrünün unudulmuşları, atılmışları olmuşlar. Qəribədir, nə üçün sadəcə öz zamanında aktual olmayanlar bütün gələcək zamanlar üçün bu qədər aktual, bu qədər gərəkli olur? Bəlkə tarixdə qalmaq müasirlik adlı qurban tələb edir? Ancaq bir şey də var ki, bu qurbanı verən hər kəs tarixdə qalmır axı. Yox, bu məqsədli şəkildə edilən bir həmlənin nəticəsi deyil. Məsələn keçmişdə Antonio Salyeri adında məşhur bir italyan bəstəkarı olmuşdur. Öz zamanının ən nüfuzlu, ən imkanlı və ən hörmətli bir şəxsiyyəti olmuşdur. Necə deyərlər, əməllibaşlı saray sənətkarı olmuşdur. Lakin bu gün, hətta nəinki bu gün, ölümündən az bir müddət sonra Salyeri bir bəstəkar olaraq unuduldu. Klassik musiqinin peşəkar dinləyiciləri yaxşı bilir ki, bu gün heç bir orkestrin, heç bir xorun, hətta heç bir solistin ifasında biz Antonio Salyeri ünvanına rast gəlmirik. Onun adının bu gün çəkilməsinin tək səbəbi Volfhanq Amadey Motsartın zəhərlənərək öldürülməsi haqqındakı əfsanədə adının hallanmasıdır. Bu barədə, yəni Salyeri qısqanclıq zəminində Motsartı zəhərləyib ideyasını daşıyan libretto əsasında dahi rus bəstəkarı Rımski-Korsakov məşhur "Motsart və Salyeri" adlı opera da yazmışdır. Vəssəlam. Bu qədər. Bitdi Salyeri. Hətta əzici çoxluq bu hadisənin bir nağıl olduğunu iddia edir və bizcə də belə bir hadisə olmayıb. Lakin, dahi və səfil Motsartın bir damla ləkəsi unudulmaq üzrə olan Antonio Salyerini tarixə saldı! Məncə, Salyeri bu böhtana görə, qaragüruha minnətdar olmalıdır.

Deməli, bu kiçik və qaranlıq araşdırmadan belə nəticə hasil olur ki, hər hansı bir keçmişin tarixə çevrilməsi üçün onun dəyərli, əhəmiyyətli və ən əsası aktual, dolayısı ilə müasir olması şərtdir. O zaman daha dərin və dolaşıq bir problem ortaya çıxır. Bəli, hər keçmiş tarix deyil, lakin hər tarix həm də keçmişdir. Yəni, türkcəsi, keçib getmişdir. Bəs keçib getmiş bir şey özündən sonrakı bütün zamanlar üçün necə müasir, necə aktual ola bilir? Axı o dahilər bunları, bu şedevr əsərləri gələcəyi düşünərək, daha kobud ifadə etsək, tarixdə qalmaq üçün yaratmayıblar. Belə olsaydı, onlar dahi yox, riyakar olardılar. Bernini də, Mikelancelo da məhz Roma Papası üçün çalışırdı. Və onlar bilmirdi ki, San-Pyetro meydanının ömrü nə qədər sürəcək. Elə Nizaminin də "Xəmsə"si bütövlüklə sifariş idi. Halbuki bu gün nə Xosrov var, nə İskəndər var, nə də Fitnə. Ancaq "Xəmsə" yaşayır. Özü də Nizami yaşamır ha, yalnış anlaşılmasın, məhz "Xəmsə" yaşayır. Bu sualların düşünüldüyü qədər bəsit, bir az da kommunistyana cavabı olsaydı, biz onu bir "problem" qoyub ortaya atmazdıq. Heç kim deməsin ki, tarix təkrarlanır, nə bilim, ədalət, insanlıq, bütün bunlar bütün zamanlar üçün eyni dərəcədə keçərlidir. Qətiyyən! Tarix heç zaman təkrarlanmır. Təkrarlansa o tarix olmaz. Nə ədalət o ədalətdir, nə insanlıq anlayışı əvvəlki səpgidədir, nə İskəndər o İskəndərdir, nə Sokrat o Sokratdır. Zaman hər an yenilənir. Hər zaman üçü heç zaman gözlənilməyən, inanılması mümkün olmayan feiliyyət mexanizmi işə düşür. Özü də bu mexanizm qətiyyən, tarixin heç br dövründə zaman dayanmayıb. Sanki, dəyişilmək, dəyişdirmək kimi feiliyyət amilləri elə kainatın davamlı hərəkəti ilə paraleldir və hətta onun bir parçası və dialektik davamıdır. Bəli, bütün zamanlar üçün işlək olub bu feili təbəddülat. Tarix təkrar olunsaydı, əsərlərini oxuduğumuz dahilər öz zamanlarından şikayət etməzdilər. Zamanından şikayət isə, məntiqi olaraq, gələcəyə ümiddən çox keçmişə olan həsrətlə düz mütənasibdir. Yəni, həndəsi olaraq bu fiqurlar bir-birlərinə həmin bu şəkildə yapışır. İstisnasız olaraq söyləmək olar ki, öz dövründən şikayət etməyən bir dənə də olsun dahi yoxdur. Dahilik bir yana qalsın, hələ adi məişətin özündə belə, nəsillər dəyişməsinə baxmayaraq, bütün atalar, bütün analar "bizim zamanımızda hər şey daha gözəl idi" deyir. Yəni, keçmişin daha gözəl olduğuna dair mütləq və israrçı bir inanc vardır insanlarda. Hətta insanların şikayət etdikləri bu gün, məsələn, 20 ildən sonra onların gözünə hazırkı dövrə görə çox daha ədalətli və hüzurlu görünür. Belə çıxır ki, zaman korlana-korlana, əriyə-əriyə, kiçilə-kiçilə gedir. Ancaq bu belə deyil. Belə olsaydı, hər zamanın öz dahiləri, öz gözəlliyi, öz fəlsəfəsi olmazdı. Keçmişi özləmək insan xəstəliyidir. "Qabusnamə"dən bu günə qədər cavanlar kəkil saxlayır, yaşlılar isə buna tənə edir. O qocalar bir vaxt cavan olub, o cavanlar da bir gün qocalacaq. Yəni, hər qoca əslində öz gəncliyinə tənə edir. Bəs bu paradoksal döngünün öldürücü, əridici, yoxedici dişlərinin altından necə sağ çıxır tarix?! Bəlkə də hansısa memarlıq abidəsi bu gün öz təyinatı üzrə fəaliyyət göstərmir. Ancaq onun içərisində çalınan musiqinin təyinatı dəyişməyib axı! Başqa bir düşündürücü ayrıntı da var. O da bundan ibarətdir ki, qiymətli olan nəsnələr iki qrupa bölünür: həqiqətən inci olanlar və tarixin inciyə çevirdikləri. Tarixi adlayaraq bu günə gəlib çıxa bilən materiallar həqiqətən qiymətlidir, yoxsa, onlar sadəcə eksponatdır? Əgər onlar sadəcə muzey materialıdılarsa, nə üçün belə qiymətlidirlər? Axı qədimdən qalma bir daş parçasının bu günkü beton divarla öz təyinatı baxımından heç bir fərqi yoxdur. Yəni, bu günkü beton parçası da, məsələn, plazmatik binalardan oluşan gələcək şəhərlər üçün bir muzey materialı ola bilər. O da təbiətdən gəlirdi, bu da. Təbiətdən gəlməyən nə var ki? Kimyəvi məhsulların özü hardan gəlir? Kimyəvi elementlər cədvəlində olanlar insan əlinin məhsulu deyil ki. İnsan təbiətdən gələnləri sadəcə olaraq, qeyri-təbii yollarla qarışdırır və kimyəvi məhsullar bundan yaranır. Əlbəttə, buna etiraz edənlərə müəyyən qədər haq tanımamaq da haqsızlıq olardı. Belə ki, Haq Tanrıdır - yəni, təbiətdə ikən onların hərəsinin öz təyinatı vardı. İnsan əliylə onların vəzifələri bir-birinə qarışdırıldı. Necə deyərlər, aləm dəydi bir-birinə... Ancaq kimya elminin nə günahı var burda? İnsan oğlu bunu hər zaman edib. O rəngləri də, notları bir-birinə qarışdırıb, yeni məhsullar alıb. Onlar təbiətdə mövcud idi və hərəsinin özünün sakitcə, məsumca təyinatı vardı, vəzifəsi vardı. Dindarlar demişkən, kafir insan əli dinc durmadı. Qoymadılar ki, Dünya Allahın öz yaratdığı kimi qalsın! Görürsünüz təbiətdəki məsum heyvanları?! Heç heyvandan da fizikçi, kimyaçı, rəssam, bəstəkar olar!? Yox, mən gərək son iki-üç cümləni dırnaq içində yazaydım ki, bir az "Molla Nəsrəddin"çi olduğum anlaşılsın. Rəhmətlik Mirzə Cəlilsayağı olmasın, doğrudan da heyvandan nə alim olar, nə sənətkar!



İndi gələk bu xaosu bir az nizamlamağa. Antika şeylər sadəcə özünü bu günə çatdırdığı üçün və sayca məhdud olduğu üçün qiymətlidir - ən azından biz belə düşünürük. Əlbəttə, bu eksponat Misir kralına məxsus unitaz parçası yox, məsələn, rəhmətlik Kleopatranın almaz kolyesi olsa, onun qiyməti ayrıcadır. O artıq sadəcə antika olmaqdan çıxır. Lakin mənim anlamadığım unitaz parçasının da tarixi əsər olaraq auksiyonlara çıxarılmasıdır. Axı o fakt (artefakt olmayan bir parça) bizə nə deyə bilər? Məncə burada biznes maraqlarından başqa maraqlı heç nə yoxdur.

Beləliklə, bu nəticəyə gəldik ki, qiymətli olan bir para nəsnələrin inciyə çevrilməsinin əsas müəllifi tarixdir. Lakin, yenə də bu məsələdə israrlıyıq ki, o tarixin də bir anlamı, bir əhəmiyyəti, ya da heç olmasa bir özəlliyi olmalıdır. Tutanhamonun diş çöpü ilə Messinin tərli köynəyinin milyonlar tutan qiyməti onların daşıyıcısının kimliyindədir və bu tarix üçün elə də önəmli fəlsəfi yükə sahib deyil.

İndi gələlim həqiqətən qiymətli olan parçaların üzərinə. Mariya Lüinin Versalda saxlanılan qiymətli incisinin haqqı uşaqkən onu qucaqlayan zavallı Amadey Motsartın kiçik bir əsəri qədər önəmli deyil və ola da bilməz. Ən azından ona görə ki, mən və ölüb getmiş kraliçadan başqa heç kim o inciyə müvəqqəti də olsa, sahib deyil. Ancaq Motsartın inciləri bu gün mənim boynumda, sinəmdə, qolumda, əlimdə, barmaqlarımda, ürəyimdə, beynimdə, canımda, qanımdadır! Fəqət, o zavallının özündən başqa hər kəsə faydası toxundu bu incilərin. Hər kəs onlardan həzz aldı, o səfil dahinin özündən başqa! Əbədiyyətin bədəli səfalətdirmi? Gələcəyə daşınmağın bədəli bu gün unudulmaqdırmı?! Bu nə dəhşətli alış-verişdir?! Bəli, Nizami kimi onun da bütün əsərləri demək olar ki, sifarişlə yazılmışdı! Ancaq indi hardadır o sifarişin əvəzində onlara qəpik-quruşu çox görən iqtidar sahibləri? Harada olacaqlar - keçmişdə! Tarixdə yox, məhz keçmişdə! Keçdi getdi onlar. Yenə də keçib gedəcəklər. Zamanını, dövrünü qazanmaq istəyənlər yaxşı bilsinlər ki, onların qazandıqları sadəcə elə o qədərdir, vəssalam! Onlar əbədiyyət haqqında xəyal belə qurmasınlar! Bilsinlər ki, həmin əbədiyyəti, yəni gələcəyin əbədi olaraq, onlardan faydalanma, onlar vasitəsilə mənəvi və əqli qurtuluşa nail olan insanları qeybdən görmə xoşbəxtliyini onlar fanilıyə, keçici və yalançı şöhrətə dəyişdilər. Onlar ac qalmaq istəmədilər, nisgilli olmaq, qərib olmaq istəmədilər, bu gün üçün, yalnız və yalnız iyrənc bədənlərinin həzzi üçün yaşadılar!

Ancaq əslində, duyun get-gedə qalınlaşır, dolaşır və çözülməsi mümkünsüz hala gəlir. Necə olur ki, sifariş verən baronlar ölüb gedir, və onların bər-bəzəkli məzarlarına belə uzun zaman dözmür insanlar, ancaq onların sadəcə əyləncələri üçün sifariş edilən əsərlər əsrləri aşır və gələcəyə əyləncəli deyil, məhz faciəvi bir estetika ilə daşınır. Bəli, qəribə də səslənsə, bu gerçəkdən belədir. Hamı, tənqidçisindən tutmuş, adi dinləyicisinə qədər hamı bir ağızdan deyir ki, Volfhanq Amadey Motsartın musiqisi faciəlidir, müdhiş dərəcədə qəmli və dərindir. Buna görə də öz növbəsində qəliz, çətin anlaşılan və çətin ifa edilən dir. Bəlkə o zavallı dahi bunu qəsdən belə edib? Ancaq buna da inanmaq çətindir. Bernini illüminat, Motsart masson, Nizami ismaili ola bilərdi. Ancaq faktiki olaraq, Papa da, Avstriya imperatoru da, Qızıl Arslan da səfeh adamlar deyildi. Bu dahilərin onları aldatması, yəni məddahlıq və əyləncə yerinə kosmik kədər yaradıb onların saray süfrələrinə daşımaları belə asanlıqla mümkün deyildi - ancaq dediyimiz kimi, yalnızca o zaman üçün. Bu gün isə, onlar həddindən artıq, bəli, bəli, həddindən artıq müasirdir! Və bu onu işarə edir ki,.. nəyi işarə edir? Əlbəttə ki, gələcəyi! Sirrin özü əsərlərdə deyil, namütənasib olan, bilinməz olan gələcəkdədir. Bundan da böyük, bundan da dəhşətli sirr isə ondan ibarətdir ki, dahilərin əbədiyyətlə kontaktı necə qurulur! Bax, bu sualın cavabını şəxsən mən heç zaman tapa bilməyəcəyəm!